13 sentyabr 2019-cu il, cümə

XALQ QƏZETİ

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 401** **Bakı şəhəri, 10 sentyabr 2019-cu il**

**“Azərbaycan Dillər Universitetinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında**

“Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının 2.6.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Dillər Universitetinin Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dillər Universitetinin “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq zəruri tədbirlər görülməsini təmin etsin.

**3.** Bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***